**2026-cı ilin iyul ayı ərzində müayinə və texniki xidmət məlumatları üzrə keçirilmiş monitorinqin nəticələrinə dair məlumat**

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Enerji tənzimləmə və monitorinq departamentinin əməkdaşları tərəfindən 2026-cı ilin 6 iyul tarixindən 31 iyul tarixinədək olan müddətdə müayinə və texniki xidmət məlumatları Reyestrindən toplanılmış məlumatların təhlili, qiymətləndirilməsi və yoxlanılması üsulu ilə monitorinq keçirilmişdir.

Monitorinq nəticəsində qazpaylayıcı sistem operatoru tərəfindən qaz qurğularında və qaz xətlərində müayinənin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsinin “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci maddəsi ilə müəyyən edilmiş qaydada aparılmadığı, eyni zamanda texniki xidmətin həmin Qanunun 19-cu maddəsi ilə müəyyən edilmiş qaydada həyata keçirilmədiyi müəyyən olunmuşdur.

Aşkar olunmuş nöqsanların aradan qaldırılması məqsədilə qazpaylayıcı sistem operatoruna icrası məcburi olan göstəriş verilmişdir.